Azerbaijan Energy Regulatory Agency

Enerji Məsələlərini Tənzimləmə Agentliyi

VAKANSİYA ELANI

Regionlar üzrə - Enerji Müfəttişi

Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- İş bölgüsü üzrə öz vəzifələrinin icrası üçün Filiala daxil olan sənədlərin icrasını təmin edir;
- Etibarnamə əsasında Filialı məhkəmələr və üçüncü şəxslər qarşısında təmsil edir;
- Filialın fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təmin edir;
- Filialın fəaliyyətinin təşkili ilə əlaqədar daxili tapşırıqları icra edir, o cümlədən Filialın əməkdaşları arasında aparılmış iş bölgüsü üzrə fəaliyyət göstərir;
- Sahibkarlıq sahəsində və dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə yoxlamaların (nəzarət tədbirlərinin) aparılmasını həyata keçirir və qanunvericiliklə müəyyən edilmiş qaydada nəticələri rəsmiləşdirir;
- Enerji sahəsində istehsalçılar, təchizatçılar, ötürücülər və paylayıcılar arasında mübahisələrə, habelə istehlakçıların şikayətlərinə baxılmasını həyata keçirir;
- İstehlak olunan elektrik enerjisinə görə hesablaşmaların müvafiq sayğaclar vasitəsilə aparılmasına nəzarəti həyata keçirir;
- Dövlət müəssisələrində elektrik enerjisindən istifadə üzrə istehlak limitlərinə əməl olunmasına nəzarəti həyata keçirir;
- Enerji sistemində elektrik enerjisi və güc çatışmazlığı ilə əlaqədar enerji istehsalı və sistem operatorlarının tətbiq etdikləri məhdudiyyət və birbaşa açılma qrafiklərinin düzgün tərtib olunmasına və yerinə yetirilməsinə nəzarəti həyata keçirir;
- Enerji istehsalı və sistem operatorlarında elektrik enerjisinin istehsalı, ötürülməsi və paylanması proseslərinin idarə edilməsinə, mərkəzi və yerli idarəetmə səviyyəsində dispetçer xidmətlərinin işinin mövcud qaydalara, təlimatlara və digər hüquqi aktların tələblərinə uyğun təşkil olunmasına nəzarəti həyata keçirir;
- Elektrik şəbəkələrində, habelə enerji verilməsində qurğularda, avadanlıqlarda baş vermiş hadisələrin, yaxud istismar olunan avadanlığın sıradan çıxması hallarının qeydiyyatını aparmaq, onların baş vermə səbəblərinin araşdırılmasında iştirak etmək, eləcə də belə hadisələrin və halların qarşısının alınması üçün təşkilati-texniki tədbirlər hazırlamaq və onların yerinə yetirilməsinə nəzarəti həyata keçirir;
- Filialın fəaliyyət ərazisində 200 kVt-danyuxarı elektrik qurğuları üçün istismara buraxılış aktının verilməsi ilə bağlıtikinti obyektlərinin elektrik qurğularına baxış keçirir və nəticələrini aktla rəsmiləşdirir;
- Müvafiq sahədə fəaliyyət göstərən müəssisələrin və onların tabeliyindəki qurumların elektrotexniki heyətinin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin, onların müavinlərinin, həmçinin elektrik qurğularına nəzarət vəzifəsi həvalə edilmiş əməyin mühafizəsi üzrə mütəxəssislərin peşə biliklərinin yoxlanılmasında iştirak edir və qanunvericiliklə müəyyən edilmiş qaydada nəticələri rəsmiləşdirir;

- Müvafiq sahədə baş vermiş enerji istehsalı və sistem operatorunun sabit işləməsinə və enerji təchizatına təhlükə yaradan qəzaların araşdırılmasında iştirak edir;
- "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın elektrik enerjisinəaid hissələrinin tələblərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirir;
- Agentliyin səlahiyyətlərinə aid məsələlərə dair inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında protokol tərtib edir;
- Filialın Əsasnaməsində müəyyən edilmiş vəzifələrin həyata keçirilməsi ilə bağlı müvafiq sahədə icrası məcburi göstərişlər verir;
- İş bölgüsü üzrə Filialın fəaliyyəti nəticəsində yaranmış statistik məlumatların uçotunu aparır;
- Səlahiyyətlərinə aid olan məsələlərlə bağlı konfrans, iclas, seminar və digər tədbirlərdə iştirak edir;
- İş bölgüsü üzrə Filiala daxil olan müraciətləri qanunvericiliklə müəyyən edilmiş qaydada araşdırır və nəticələrini rəsmiləşdirir;
- Filialın fəaliyyətinin səmərəli şəkildə təşkili ilə bağlı təkliflər verir;
- Öz fəaliyyəti barədə Filialın rəisinə hesabat verir;
- Öz vəzifələrinin icrası üçün həmin vəzifələrə mütənasib hüquqlardan istifadə edir;
- Əmək müqaviləsində və Filialın Əsasnaməsində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir və hüquqları həyata keçirir.

TƏLƏBLƏR:

- Energetika, elektroenergetika, istilik energetikası, elektrotexnika və elektromexanika, yüksək gərginlik texnikası və fizikası, elektrotexnologiya ixtisas istiqamətləri üzrə ali təhsil;
- Müvafiq sahə üzrə ən azı 3 il iş təcrübəsi;
- Yaş həddi 25-45 aralığı;
- Agentliyin region filiallarına rotatsiyaya açıq olmalı;
- Microsoft Word və Excel proqramlarında mükəmməl işləmə bacarığı;
- Rus dilini bilməsi arzu olunandır;
- Vətəndaşlarla işləmə, fikrini düzgün ifadə etmə və savadlı yazı qabiliyyəti.

DİGƏR:

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma;
- İş yeri: Regionlar üzrə
- Son müraciət tarixi:15 noyabr 2026-cı il

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini **vacancy@regulator.gov.az** poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (**Enerji müfəttişi**) qeyd edin.